***Vaxtilə Ümumittifaq turizm mərkəzi kimi tanınan Naftalanı bu gün beynəlxalq turizm mərkəzinə çeviririk.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Naftalan: daha uğurlu sabahın sorağında



***Naftalan arxadakı uca, qarlı zirvələrin, min bir rəngə çalan yamacların yaratdığı nəhəng bir fonda insan əllərinin yaratdığı gözəllik və abadlıqla cilvələnir, şəhərin küçə və meydanlarında irəlilədikcə, sanki hamıya "gəl-gəl" deyir. İlin elə çağıdır ki, bu yerlərə üz tutanların sayı da günbəgün artır. Murovun ətəklərinə sığınmış bu nadir kurort şəhəri ona pənah gətirənləri, müalicəyə və istirahətə gələnləri mehriban ana kimi öz isti qucağına alır.***

Bu günlərdə – karantin rejiminin nisbətən yumşaldıldığı günlərdə şəhərə səfərimiz zamanı bir daha bunun şahidi olduq. Park və xiyabanlar, küçə və meydançalar yenə də qonaqlı-qaralıdır, ətrafa musiqi sədaları ucalır, hər yerdə canlanma, yenilik, yüksək əhval hiss olunur. Özü də bu dəyişikliklər təkcə karantin rejiminin yumşaldılması tədbirləri ilə bağlı deyil. Ədalət naminə deyək ki, son aylar şəhərdə həyata keçirilən müxtəlif təyinatlı tədbirlər, aparılan abadlıq və quruculuq işləri, bütün sahələrdə intizam və tələbkarlığın daha da artırılması, insanların haqlı şikayət və tələblərinə obyektiv münasibət, onlara göstərilən diqqət və qayğının təzahürləri hər addımda duyulur.

Bir sözlə, iş üslub və metodlarının təkmilləşdirilməsi, sağlam mənəvi-psixoloji mühit öz müsbət nəticələrini verməkdədir: sənətindən, yaşından, peşəsindən asılı olmayaraq, hər bir şəhər sakini bu ümumi inkişaf və irəliləyişdə fəal iştirak etməyə çalışır. Hamı doğma Naftalanı daha abad və gözəl görmək istəyir, sabaha dərin inam və ümidlə baxır. Belə bir cəhəti də xatırlatmağa dəyər ki, abadlıq və quruculuq işləri, bir vaxtlar olduğu kimi, kampaniya xarakteri daşımır, ardıcıl və sistemli şəkildə aparılır. Naftalan Şəhər İcra Hakimiyyətindən aldığımız geniş arayış əsasında, necə deyərlər, bir roman yazmaq olar. Ancaq mən burada əldə edilən nailiyyətlərdən ən önəmlilərini, qısa da olsa, yada salmaq istəyirəm.



Şəhər icra hakimiyyəti başçısının rəsmi qəbul günləri öz yerində, yaşayış sahələrində və kollektivlərdə də müntəzəm olaraq səyyar qəbullar keçirilir. Bununla belə, icra başçısının olduğu bütün ünvanlarda sakinlər icra başçısına yaxınlaşıb müraciət edə, onları narahat edən hər hansı məsələ barədə danışa, fikir və arzularını dilə gətirə bilirlər. Bu isə ona gətirib çıxarır ki, aylarla, bəzən isə illərlə davam edən hər hansı narahatlıq həmin gün həllini tapır.



Elektrik təchizatının yaxşılaşdırılması sahəsində atılan konkret addımlar, şəhərin turizm brendinin yaradılması, yaşıllaşdırma tədbirləri (təkcə son aylar 8 min ədəd müxtəlif ağac və gül kolları əkilmişdir) şəhərdə tikilən 3 yeni turizm-sağlamlıq mərkəzi, bütün küçə və meydanlarda aparılan abadlıq tədbirləri, Heydər Əliyev prospektinin yenidən qurulması və daha da gözəlləşdirilməsi… Biz bura artıq tikintisi başa çatdırılmış 200 yerlik körpələr evi-uşaq bağçasını, "Naftalan" mehmanxanasının əsaslı təmiri və yenidən qurulmasını, yeni Avtovağzal-otel kompleksini də əlavə edə bilərik. Onu da deyək ki, bütün bu işlərdə təkcə şəhər icra hakimiyyəti, müvafiq idarə, müəssisə və təşkilatlar, başqa sözlə desək, rəsmi dövlət strukturları deyil, ziyalılar, ağsaqqallar, gənclər, bir sözlə, bütün əhali fəal iştirak edir.

Yeri gəlmişkən, xatıradaq ki, hələ XIX əsrin axırlarında alman mühəndisi Yeger Naftalan nefti çıxarmaq üçün ilk dəfə burada quyular qazdırmışdır. O, Naftalan neftindən müalicə mazı hazırlamaq üçün kiçik zavod da tikdirmişdir. Naftalan mazının Almaniya vasitəsilə Yaponiyaya, ABŞ-a, İngiltərəyə, Hollandiyaya və başqa ölkələrə satılması nəticəsində onun əvəzsiz müalicəvi təsiri haqqında əfsanələr sürətlə dünyaya yayılmışdır. Bu cəhətdən alman alimi Unnanın dediyi sözlər çox ifadəlidir: "Kimin naftalanı varsa, onun hər şeyi var".

Tarixi faktlardan o da məlumdur ki, 1904–1905-ci illərdə rus-yapon müharibəsi zamanı əsir düşmüş Yaponiya əsgərlərinin təcili yardım çantalarında da Naftalan mazı tapılmışdır.

Beləliklə, əvvəllər kustar şəkildə istifadə olunan Naftalan neftinin əsl şöhrəti və möcüzəsi ötən əsrin ortalarında meydana çıxmışdır. 1964-cü ildə burada Naftalan Sanatoriya Kurort Birliyi yaradılmışdır. Əvvəllər Goranboy və Yevlax rayonlarının tərkibində qəsəbə kimi fəaliyyət göstərən Naftalan 1967-ci ildə keçmiş Sovetlər Birliyinin ən böyük sağlamlıq ocaqlarından biri olduğuna görə, ona respublika tabeliyində şəhər statusu verilmişdir.

Kurort şəhəri kimi Naftalanın əsl inkişaf və yüksəlişi, əlbəttə, ulu öndər Heydər Əliyevin respubikaya rəhbərlik etdiyi 70–80-ci illərə təsadüf edir. Məhz həmin illərdə şəhərdə kurort kompleksinin daha da inkişaf etdirilməsi ilə bağlı xüsusi qərar qəbul olunmuşdur. Qısa müddətdə yeni sanatoriya binaları tikilib istifadəyə verilmiş, bütün sahələrdə ciddi inkişaf və irəliləyiş əldə edilmişdir. Heç də təsadüfi deyildir ki, o illərdə Naftalana istirahətə və müalicəyə gedənlərin sayı ildə 70–80 min nəfərə çatırdı.

Təəssüflər olsun ki, 1988-ci ildən respublikanı bürüyən xaos və anarxiya bu şəfa ocağından da yan keçməmişdir. Nəticədə, şəhər öz əvvəlki şöhrətini itirmiş, bütün infrastruktur, demək olar ki, dağıdılmışdır. Sanatoriya binalarının əksəriyyətində isə erməni işğalı nəticəsində doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkün ailələri yerləşdirilmişdir.

İndi isə Naftalanda özgə büsat var. Son illər kurort şəhəri öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, tikinti-abadlıq və quruculuq işləri genişləndirilmiş, iri layihələr həyata keçirilmişdir. Bunu təkcə şəhərin gündən-günə dəyişən və gözəlləşən siması yox, həm də bu misilsiz şəfa ocaqlarına gələnlərin hər il artan sayı da təsdiq edir.

Burada, əlbəttə, Prezident İlham Əliyevin Naftalana tarixi səfərini, bir sıra turizm və sosial obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakını, şəhər ictimaiyyəti nümayəndələri ilə keçirdiyi səmimi görüş və söhbətləri, dövlət başçısının şəhərin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək üçün imzaladığı sərəncamları, verdiyi göstəriş və tövsiyələri ayrıca qeyd etmək lazımdır. Həmin səfər və görüşlər Naftalanda işlərin gedişinə əsaslı təkan vermiş, bütün səy və qüvvələr hərəkətə gətirilmişdir.



Şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzovla kabinet söhbətimiz uzun çəkmədi. Şəhəri gəzdik, görülmüş işlərlə yerindəcə tanış olduq, sakinlərlə ayaqüstü söhbətlər etdik. Hər yerdə də aparılan genişmiqyaslı işlərdən, gerçəkləşdirilən tədbirlərlə bağlı minnətdarlıq sözləri eşitdik, xoş əhvalın və sabaha möhkəm inamın şahidi olduq. İcra başçısının böyük inam və ümidlə danışması da bu yüksək əhvaldan qaynaqlanırdı:

– Ölkə Prezidenti cənab İlham Əliyevin bizdən tələbi belədir: insanlara qayğı ilə yanaşın, onların haqlı tələblərinə, çətinlik və problemlərinə həssas münasibət bəsləyin, daim onların yanında olun, regionların sosial-iqtisadi inkişafını diqqət mərkəzində saxlayın. Biz də ilk gündən işimizi məhz bu tələblər üzərində qurmağa çalışırıq. Hazırda Naftalanda 3-ü beşulduzlu olmaqla 12 sanatoriya mövcuddur. Deməli, şəhərin büdcəsi də əsas bu sahədən gələn gəlirlərlə formalaşır. Ona görə də gələcəkdə yeni sanatoriya-müalicə mərkəzlərinin, o cümlədən yaşayış evləri və ictimai binaların tikintisi, küçə, meydan və xiyabanların milli üslubda, daha zövqlə yeniləşdirilməsi, yaşıllıq zolaqlarının genişləndirilməsi, bir sözlə, Naftalanı müasir, yaraşıqlı və gözəl bir şəhərə çevirmək əsas hədəfimizdir.

Şəhər rəhbəri görüləcək işlərdən, yeni hədəflərdən, qarşıda duran önəmli vəzifələrdən həvəslə danışır, misallar çəkir, müqayisələr aparırdı. O, sanki, sabahkı Naftalanı öz gözləri ilə görürdü, çöhrəsinə xoş bir təbəssüm, qətiyyət, inam və ümid yayılırdı.

Bütün bunlar bir daha deməyə əsas verir: Naftalan yeni uğurlara yönəlik işıqlı yol üstədir.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***